**Etik davranış məsələləri ilə bağlı 2023-cü il üzrə məlumat**

Hər il olduğu kimi, 2023-cü il ərzində də miqrasiya orqanları işçiləri tərəfindən etik davranış qaydalarına əməl olunması, onların fəaliyyətində şəffaflığın və səmərəliliyin, vətəndaş məmnunluğunun təmin edilməsi, miqrasiya orqanlarının nüfuzunun artırılması əsas götürülmüşdür.

Hesabat dövrü ərzində Dövlət Miqrasiya Xidmətinin işçiləri üçün 10 halda "Etik davranış qaydaları", "Korrupsiya ilə əlaqədar hüquq pozuntusuna görə məsuliyyət. Etik davranış qaydaları və maraqların toqquşmasının qarşısının alınması", "Etik davranış qaydaları və onların pozulmasına görə məsuliyyət", "Azərbaycan Respublikasının miqrasiya orqanları işçilərinin etik davranış qaydaları" mövzularda təlimlər keçirilmişdir. Təlimlərdə ümumilikdə 218 nəfərin iştirakı təmin edilmişdir. Keçirilmiş təlimlərdə korrupsiyanın hüquqi və iqtisadi anlayışları, növləri, yaratdığı fəsadlar, korrupsiyaya qarşı mübarizə sahəsində qəbul edilmiş qanunvericilik aktları, korrupsiyanın qarşısının alınması ilə bağlı tədbirlər, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri və hüquqpozmalara görə məsuliyyət, hüquqpozmaların nəticələrinin aradan qaldırılması və digər məsələlər barədə məlumat verilmişdir.

5 oktyabr 2023-cü il tarixdə Dövlət Miqrasiya Xidmətinin təşkilati dəstəyi ilə "Miqrasiya proseslərinin effektiv idarə olunması və korrupsiya ilə mübarizə" mövzusunda təşkil olunan seminarda qeyri-hökumət təşkilatlarının nümayəndələri və Xidmətin 40 nəfərdən çox işçisi iştirak etmişdir. Tədbir iştirakçılarına vətəndaş cəmiyyəti institutları ilə qurulan əməkdaşlıq əlaqələrinin səmərəliliyi, miqrasiya proseslərinin effektiv idarə olunması və bu sahədə həyata keçirilən antikorrupsiya tədbirləri, korrupsiyanın yaratdığı təhlükələr, korrupsiya ilə əlaqədar hüquqpozmalar, bu sahədə əsas anlayışlar, hüquqpozmaların subyektləri, korrupsiya riskləri və digər məsələlər haqqında geniş məlumat verilmişdir.

Həmçinin, bu müddət ərzində Dövlət Miqrasiya Xidmətində keçirilmiş iclaslarda və müşavirələrdə Xidmət üzrə etik davranış qaydaları ilə bağlı mövcud vəziyyət diqqətdə saxlanılmış, aparılmış müzakirələr zamanı etik davranış qaydalarının pozulmasının nəticələrinin aradan qaldırılmasının vacibliyi qeyd edilərək bu sahədə icrası zəruri olan tapşırıqlar verilmişdir.

Miqrasiya orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həlli, o cümlədən etik davranış qaydalarına əməl olunmasına nəzarət məqsədilə Dövlət Miqrasiya Xidməti rəisi tərəfindən 11 fevral 2023-cü il tarixdə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin etik məsələləri ilə bağlı 2023-cü il üzrə Tədbirlər planı" təsdiq edilmiş və həmin Tədbirlər planında öz əksini tapmış tədbirlərin icrası təmin olunmuşdur.

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişiklikləri nəzərə alaraq, "Azərbaycan Respublikasının miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış Qaydaları"nda müvafiq dəyişikliklər edilərək etik davranış üzrə müvəkkil barədə yeni bənd əlavə edilmişdir.

Eyni zamanda, Dövlət Miqrasiya Xidməti rəisinin 14 sentyabr 2023-cü il tarixli 3-37/3-2/a-187/2023 nömrəli "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində etik davranış üzrə müvəkkilin təyin edilməsi haqqında" əmrini rəhbər tutaraq, Xidmətin rəsmi internet saytında "Etik davranış üzrə müvəkkil" adlı altbölmə yaradılmışdır.